## TÜRKIYƏ CÜMHURIYYƏTI XX ƏSR - XXI ƏSRIN ƏVVƏLLƏRINDƏ (1923-2020)

### Osmanlı XX ƏSRİN ƏVVƏLİNDƏ (1923-CÜ ILƏDƏK)

XX əsrin əvvəllərində Osmanlı imperiyasının iqtisadi vəziyyəti pisləşdi. Kapitulyasıyalardan istifadə edən Avropa tacirləri bazarlarda ağalıq etməyə başladılar. Xaricilərin ən çox gəlir əldə etdiyi sahələrdən biri dəmiryolu şəbəkəsi idi. Almaniyanı özlərinə rəqib hesab edən Rusiya və İngiltərə Osmanlı imperiyasının bölüşdürülməsinə çalışırdılar. Onlar 1908-ci ildə Revel (indiki Tallin) görüşündə Osmanlı imperiyasını bölüşdürmək məsələsini müzakirə etdilər.

II Əbdülhəmid 1909-cü ilin aprelində hakimiyyətdən kənarlaşdırıldı. Onun qardaşı V Mehmet Rəşad sultan elan edildi. Beləliklə, «Gənc türklər» inqilabı Osmanlı imperiyasının siyasi quruluşunu dəyişmədi. İnqilab yuxarı təbəqələrin inqilabı idi.

**1914-cü il oktyabrın 29-da Rusiya Osmanlı imperiyasına müharibə elan etdi.** Oktyabrın 30-da Sevastopol, Feodesiya və Novorossiysk top atəşinə tutuldu. Beləliklə, noyabrın 11-də Osmanlı dövləti Rusiyaya qarşı müharibəyə başlayaraq Antanta ölkələrinə «cihad müharibəsi» elan etdi.

1915-ci ilin əvvəlində Sarıqamış məğlubiyyətindən sonra Osmanlı qoşunlarının əsas hissəsi müttəfiqlərin Dardanelə çıxardığı desanta qarşı döyüşlərə cəlb olundu. 1916-cı ilin yanvarına qədər davam edən **«Çanaqqala döyüşləri»** ndə türk ordusu qalib gəldi. Çanaqqala qələbəsi ilə İstanbulun Antanta tərəfindən işğalının qarşısı alındı. Bu döyüşlərdə 3 mindən çox azərbaycanlı döyüşçü qəhrəmanlıqla həlak oldu.

1918-ci ilin sentyabrında müttəfiqlərin ordusu Soloniki cəbhəsində hücuma keçib Bolqarıstanı təslim olmağa məcbur etdi. Türkiyə Almaniyadan ayrıldı və yeni hökumət yaradıldı. Bu hökumət **1918-ci il oktyabrın 30-da Mudros limanında «Aqamemnon» adlı ingilis zirehli gəmisinin göyərtəsində ingilislərin qoyduğu şərtləri qəbul edərək barışığı imzaladı**.

Belə bir dövrdə Ərzurum və Trabzon əhalisinin təşəbbüsü ilə iyulun 10-da Ərzurum konfransı toplandı və xalqın hüquqlarının müdafiəsinə qərar verildi. Konfransda bildirildi ki, qısa zamanda seçkilər keçirilməli və deputatlardan Məclis toplanmalıdır. Bunların ən nüfuzlusu **«Milli Hüquq Müdafiə Cəmiyyəti»** idi. Məhz bu cəmiyyətin təşəbbüsü ilə 1919-cu il iyulun 31-də Balıkəsirdə olan cəmiyyətlərin konfransı toplandı. Əsas məqsəd imperialistləri Osmanlı dövlətindən qovmaq üçün nizami ordunun təşkili idi. Bu vəzifəni Mustafa Kamal paşa öz üzərinə götürdü.

Seçkilərdə Mustafa Kamalın tərəfdarları səslərin əksəriyyətini aldılar.

1920-ci il yanvarın 28-də İstanbulda toplanan Məclisdə Osmanlı dövlətinin müstəqilliyi adlanan-«**Milli And**» qəbul edildi.

*1920-ci il aprelin 23-də Ankarada yeni parlament çağırıldı. Parlament özünü **Böyük Millət Məclisi (TBMM)** adlandırdı.*

1921-ci il Osmanlı ordusu üçün zəfərlə başladı. 1921-ci il mart ayının 6-10-da türk və yunan orduları Eskişəhərə yaxın İnönü kəndində qarşılaşdılar. Yunan ordusu məğlub oldu. 1921-ci il 31 mart-1 apreldə yunan ordusu təkrar hücum etdi. İkinci İnönü döyüşündən sonra türk zəfəri qətiləşdi.

Osmanlı ordusu sentyabrın 13-də Sakarya çayı üzərində qələbə qazandı. Türkiyə xalqı 1922-ci il oktyabrın əvvələrində müdaxiləçilər üzərində qələbə çaldı. Oktyabrın 11-də Mərmərə

dənizi sahilləri Mudanyada barışıq imzalandı. 1923-cü il aprelin 23-də başladı və iyulun 24-nə qədər davam etdi. İyulun 24-də sülh müqaviləsi imzalandı, Türkiyənin müstəqilliyi tanındı.

1923-cü il sentyabrın 24-də Lozanna anlaşma sının imzalanması məra simi oldu. Beləliklə, Osmanlı dövləti xəritədən silindi, yerinə Türkiyə Cümhuriyyəti gəldi. Başqa sözlə, yarı azad Osmanlı dövləti əvəzinə müstəqil Türkiyə ortaya çıxdı. Türkiyənin «edam fərmanı» olan Sevr müqaviləsi gərəksiz bir kağız parçasına çevrildi.

**1923-cü il oktyabrın 29-da Turkiyə Respublika elan olundu. Respublikanın ilk prezidenti Mustafa Kamal seçildi.**

Türkiyə Respublikasının ilk **Baş nazir İsmət** paşa olmuşdur.

***1924-cü il aprelin 24-də qəbul edilən Konstitusiya mayın 24-də qüvvəyə mindi.***

Mustafa Kamal paşa geniş miqyaslı islahatları sayəsində ölkəni böhrandan və iqtisadi geriləmədən xilas etdi. Etatizm siyasəti milli kapitalı müdafiə edən dövlət tədbirlər sistemi oldu.

**Mustafa Kamal Atatürk 1938-ci il noyabr ayının 10-da İstanbulda Dolmabaxça Sarayda vəfat etdi.**

II dünya müharibəsi başlanan ərəfədə Türkiyə Cümhuriyyətinin yaranmasından cəmi 15 il keçmişdi. Bir sözlə, Türkiyə dövlət olaraq yenicə dirçəlirdi. Həmin səbəbdən də, müharibəyə hazırlaşan tərəflərdən heç biri Türkiyəyə sırf hərbi güc sahibi kimi ciddi maraq göstərməsə də, ölkənin geostrateji mövqeyi onların diqqət mərkəzində idi.

1945-ci ilin 25 aprel-26 iyununda San-Fransiskoda keçirilən konfransın işində Türkiyə iştirak etdi. Türkiyə Konfransda BMT-nin üzvü olmaq üçün *1945-ci ilin 23 fevralında* Almaniya və Yaponiyaya müharibə elan etdi.

DP hakimiyyəti illərində Türkiyənin xarici siyasətində böyük əmək sərf edilən məsələlərdən biri **Kipr problemi** oldu. XX əsrin 70-ci illərində Kiprdə birləşmə tərəfdarları fəallaşdı. Türkiyə Kipri xarici müdaxilədən qorumaq üçün 1974-cü il iyulun 20-də qoşunlarını adaya çıxardı. 1975-ci ilin fevralında Türk icmasının rəhbərləri Kipr türk dövlətinin yarandığını elan etdilər.1983-cü il noyabrında Şimali Kipr Türk Cümhuriyyəti adlandırıldı.

1960-1980-ci illər arasındakı dövrdə Türkiyənin fəaliyyətdə olan bu ikinci konstitusiyası ölkədə demokratik dəyərlərin daha da möhkəmləndirilməsi və genişləndirilməsi baxımından irəliyə atılmış böyük addım oldu, Türkiyənin müasir tarixində yeni bir dövrün başlanğıcını qoydu.

1983-cü il noyabrın 24-də TBMM öz işinə başladı. Seçkilərin qalibi Ana Vətən Partiyasının lideri Turqut Özalın başçılığı ilə hökumət təşkil olundu.

T.Özal hökuməti də beynəlxalq miqyaslı məsələlərin çözülməsində ABŞ-la olan bağlılığa bir təməl kimi yanaşmışdır.

T.Özal hökuməti Türkiyənin strateji maraqlar baxımından əməkdaşlığa üstünlük verdiyi dövlət kimi Almaniya Federativ Respublikasını qeyd etmək istərdik.

Türkiyə Cümhuriyyətinin 2001-ci ildən sonraki inkişafı Ədalət və İnkişaf partiyasının fəaliyyəti ilə baglıdır. Rəcəb Tayyib Ərdoğanın Baş nazir olması ilə Türkiyədə istər siyasi, istər iqtisadi, istərsə də humanitar sahələrdə ciddi dəyişikliklər başladı.

**Türkiyə iqtisadiyyatı** Beynəlxalq Valyuta Fondu (IMF) tərəfindən inkişaf edən bazar olaraq təyin olunan bir iqtisadiyyatdır.